Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

**Layihənin istiqaməti:**
**“ İctimai və dövlət maraqlarının müdafiəsi”**

# Tarix fənninin tədrisində vacib olan amillər və problemlər

**Məlum olduğu kimi, Azərbaycan XX əsrin sonlarında yenidən dövlət müstəqilliyini əldə etdikdən sonra xalqımızın dövlətçilik tarixində yeni bir mərhələ başlanmış oldu. Belə ki, keçmiş totalitar sosializm cəmiyyətindən demokratik respublika cəmiyyətinə, müstəmləkə boyunduruğundan, azad və suveren yaşamaq təfəkkürünə keçid heç də asan olmamışdı.**

Yeni sistemə, yeni cəmiyyətə uyğunlaşmaq, dünyaya inteqrasiya olmaq istiqamətində atılan mühüm addımlardan biri də təhsil sahəsində olmuşdu. Təhsil sahəsində həlli vacib sayılan məsələlərə isə yeni cəmiyyətə uyğun normativ hüquqi sənədlərin hazırlanması, dərslik problemi, fənlərin tədrisində dəyişiklik, təhsil sahəsindəki qiymətləndirmə, infrastruktur, tədrisdə İKT-nin tətbiqi və s. kimi məsələlər dayanırdı. Bu baxımdan fənlərin tədrisində meydana gələn yeni yanaşma və reformalar tarix fənnindən də yan keçməyərək, mühüm və böyük dəyişikliklərə səbəb olmuşdu. Bu səbəbdən də yazdığım məqalədə tarix fənninin tədrisində vacib olan amillər problemini qabartmağı vacib hesab etdim.

İlkin olaraq, tarix fənninin tədrisində vacib amillərdən biri hesab edilən mövcud dərsliklərə diqqət yönəltmək istərdim. Düzdür, müasir təlimin təşkilində informasiya mənbələrinin (internet resursları, tarixi-bədii əsərlər, sxemlər, müxtəlif tipli xəritələr və s.) müxtəlif olmasına baxmayaraq, yenə də "mükəmməl dərslik" tədris sahəsində gözlənilən məqsədlərə çatmaqda əhəmiyyətli rola malikdir. Hal-hazırkı günümüzdə "mükəmməl dərslik"lərin ərsəyə gəlməsində mühüm addımlar atılmaqdadır (təkrar nəşrlər, mütəxəssislərlə və fənni tədris edən müəllimlərlə əməkdaşlıq, müzakirələr və s.). Belə ki, Azərbaycan XX əsrin 90-cı illərində müstəqilliyini yenidən əldə etdikdən sonra cəmiyyətdə yeni təfəkkür formalaşmağa başladı. Təbii ki, bu dəyişikliklər təhsil sahəsindən, o cümlədən dərsliklərdən də uzaq keçmədi. Daha çox isə tarix fənninin tədrisində istifadə olunan dərsliklərdə özünü qabarıq göstərməyə başladı. Deməli olar ki, keçmiş sovetlər dönəmində tədris olunmayan Azərbaycan tariximiz yenidən işlənilərək geniş bir kursu əhatə etmiş oldu.

Cəmiyyətimizdə baş verən ictimai iqtisadi münasibətlərə olan yanlış baxışların dərsliklərdən çıxarılması da dərsliyimizin təkmilləşdirilməsi sahəsində atılmış mühüm addımlardan hesab edilə bilər. Keçmiş sovet dərsliklərində mövcud olan sosializm cəmiyyəti ilə kapitalizm cəmiyyəti arasındakı mübarizə, sinfi antiqonizm, dövlətlərarası ziddiyyətlər və s. bu kimi neqativ ideoloji yanaşmalar dərsliklərin ruhundan çıxarıldı. Yeni hazırlanan dərsliklərdə isə demokratik dəyərlər, dini dözümlülük, tarixi ədalətlilik prinsipləri və s. bu kimi bəşəri və insanpərvərlik ideyalarına əsas yer verildi. Lakin dərsliklərin hazırlanmasında bir sıra problemlər vardır ki, hələ də tam həllini tapa bilməmişdi. Bu tip problemləri aşağıdakı kimi təsnifatlaşdırmaq olar:

- Tarix dərsliklərində olan bəzi akademik səhvlər;
- Tarix dərsliklərində olan pedaqoji nöqsanlar;
- Tərtibat (xəritə, foto, illüstrasiya və s.) çatışmazlığı və ya natamamlıq;
- Alternativ dərsliklərin az olması və s.

Elmi akademik səhvlər, əsasən:

- hansısa tarixi hadisənin baş verdiyi zamanın və ya məkanın düzgün qeyd olunmaması. ( məsələn 8-ci sinif "Azərbaycan tarixi" dərsliyinin 2012-ci il nəşrində, səh. 91, §25 Qaraqoyunlu tayfa ittifaqının yaranması mövzusunu keçərkən artıq mətndə Qaraqoyunlu dövlətinin yaranmasının qeyd olunduğuna rast gəlirik. 7-ci sinif "Azərbaycan tarixi" dərsliyində "Qaraqoyunlu dövləti" mövzusunda da kobud səhvə rast gəlirik: "Qaraqoyunlu dövlətini paytaxtı Van şəhəri olmaqla Qara Məhəmməd" və "Qaraqoyunlu dövlətini paytaxt Təbriz olmaqla Qara Yusif yaratmışdı" (2014-cü il nəşri, §20, səh. 100 və 102).
- təkrar nəşr olunmuş dərsliklərdə edilmiş ixtisarların fikrin natamamlığına və ya səhv anlaşılmasına səbəb olması. (Məsələn 2014-cü ildə nəşr olunan 11-ci sinif Azərbaycan tarixi dərsliyində § 54, səh. 206. verilmiş "Neft kimyası və neft hasilatı, iqtisadiyyat, coğrafiya və xəritəçəkmə, Azərbaycan tarixi, filologiya və dilçilik kimi üstün sahələrdə fundamental tədqiqatlar Heydər Əliyev adına Müasir Təhsil Kompleksinin ümumi görünüşü davam etdirilmişdir" cümləsində məntiqi və tarixi əlaqə pozulmuşdu. Bu da öncəki nəşrdə edilmiş qüsurlu ixtisarla bağlıdır.)




- hər hansı tarixi hadisə ilə bağlı mübahisə doğuracaq məsələlərin öz əksini tapması. (məsələn, 2011-ci ildə nəşr olunan 9-cı sinif Yeni tarix dərsliyinin §1 səh. 6. "İngiltərə burjua inqilabı və vətəndaş müharibəsi" mövzusunda İngiltərə kralı I Yakovun 1603-1625 hakimiyyətdə olduğu qeyd olunub. §11 səh. 50. "Şimali Amerikada istiqlaliyyət müharibəsi" mövzusunda isə göstərilir ki, İngilis kralı I Ceyms 1607-ci ildə Virciniya şirkətinə xartiya verdi. Deməli məntiqlə ingilis kralları I Yakov və I Ceymisin hakimiyyət illəri eyni dövrə düşür və buda haqlı anlaşılmazlığa səbəb olur. Sadəcə dərslikdə şərh verilməli idi ki, əslində I Yakov və I Ceymis eyni şəxslərdi. Belə ki, ingilis kralları taxta çıxdıqda yeni təxəllüs götürürdülər. Odur ki, bunlardan biri öz adı, digəri isə təxəllüsdür).

- Bəzən tarixi ardıcıllığın gözlənilməməsi və s. kimi məsələləri misal göstərmək olar.

Pedaqoji sahədəki çatışmazlıqlar isə daha çox şagirdlərin yaş, sinif səviyyəsinin nəzərə alınmadan mövzularda informasiyanın bolluğu, daha çox mövzuların elmi-akademik formada işlənilməsi, şagirdlər üçün yorucu təsir bağışlamasıdır.

Dərslikdə əksini tapan mövzuların daha səmərəli mənimsənilməsində burada öz əksini tapan tərtibatların - xəritə, sxem, foto və s. rolu əhəmiyyətlidir. Tərtibatlar tarixi öyrənməyin ilk pillələrində öyrənilmiş materialın şagirdlər tərəfindən təhlil edilib ümumiləşdirilməsi işinə kömək edir və şagirdləri tarixi inkişafın qanunauyğunluqlarını açıb göstərməyə yaxınlaşdırır. Şagirdlərin işinin səmərəli təşkili bir çox cəhətdən mövzu üzrə tərtibatların düzgün seçilməsindən asılıdır. Çünki həmin tərtibatlar hadisələr haqqında şagirdlərə əyani təsəvvür verir. Dövrə uyğun olmayan divar tərtibatlarının istifadə edilməsi isə yanlış nəticələrə gətirib çıxara bilər.

Məlumdur ki, tarix fənni üzrə resurslarda xəritələrin yeri çox mühümdür. Dərslərdə xəritədən istifadə təkcə tarixi hadisələrin lokalizasiyası, bu hadisələrin inkişaf etdiyi coğrafi mühit haqqında təsəvvür yaratmaq üçün istifadə edilmir. Xəritə elə bir əyani vəsaitdir ki, o, tarixi materialı başa düşməyə, tarixi hadisələrin gedişini anlamağa, tarixi əlaqələri və qanunauyğunluqları açıb göstərməyə kömək edir. Tarixi materialların nəinki şərhi, həm də onun təhlili və ümumiləşdirilməsi gedişində istifadə olunan xəritə tarixi hadisələri aydınlaşdırmaq işinə də xidmət edir. Bu səbəbdən dərs resursunda yerləşdirilən və ya istifadə olunan xəritələrdə xəritənin bir sıra vacib amillərinə xüsusi diqqət yetirilməlidir. Biz bunları aşağıdakı kimi xarakterizə edə bilərik:

- Xəritələrdə tərtibatın keyfiyyəti nəzərə alınmalıdır;
- İstifadə olunan xəritələr mütləq mövcud dövrə aid olmalıdır;
- Yer adları, dövlətlərin əraziləri, hərəkət istiqamətlərinin ardıcıllığı düzgün və dərsliklərdə əks olunduğu kimi göstərilməlidir (şagirdlərdə anlaşılmazlıq və çaşqınlıq yaratmaması üçün);
- Rənglərdən düzgün istifadə edilməli;
- Siniflərin yaş səviyyəsindən və tipindən asılı olaraq xəritə miqyaslarının müəyyən olunması və s.

Yuxarıda sadaladığımız dərslik sahəsində qeyd olunan problemlərin həlli kimi bir sıra addımların atılmasını zəruri hesab edib, siniflər üzrə broşuralar, qısa konspektlər, paylama materialları və s. lazımi vəsaitlərin hazırlanması sahəsində işlər görülür. Konkret mövzuların şagirdlərə daha dolğun çatdırılması məqsədi ilə qeyd etdiyim neqativ amilləri bu materiallarda həll etməyə çalışılır.

Müasir informasiya əsrimizdə cəmiyyətin bütün sferalarında olduğu kimi tədris sahəsində də, ayrı-ayrı fənlərin tətbiqində İKT-nin rolu əhəmiyyətlidir. Lakin İKT nailiyyətlərini heç də kor-koranə deyil, daha düzgün və yerində istifadə etmək vacibdir. İlk növbədə biz müəllimlər İKT imkanlarından istifadə edərkən bəzi vacib amillərə diqqət yetirməliyik.

Mövzunun mənimsənilməsi və cavablandırılma prosesi üçün yığılmış interaktiv resursun həcmi və hazırlanmış slaydların sayı müəllimin bölgü saatına və dərsin vaxtına uyğun olmalıdır.

İnteraktiv resurslarda hazırlanmış materiallarla yanaşı müxtəlif mənbələrdən əldə edilmiş məlumat, görüntü və s. də istifadə olunur. Lakin media və internet resursları, digər əlavə materialların istifadəsi əsaslandırılmış və dərsin məqsədinə uyğun olmalıdır.

Əlavə materiallardan istifadə zamanı müəlliflik hüquqlarının qorunmasına riayət edərək istifadə olunan materiallar və istinad edilən mənbələr dərs resursunun son slaydında mütləq dəqiq qeyd olunmalıdır.

Bir məsələni də mütləq diqqətimizdə saxlamalıyıq ki, interaktiv avadanlıq və proqram təminatı təqdimat üçün deyil, interaktiv dərs tədrisi üçün yaradılıb və istifadə olunmalıdır. İnteraktiv resurs hazırlayarkən, müəllim qeyd olunan vacib amili daim nəzərə almalıdır: ənənəvi elektron resurslardan fərqli olaraq (məsələn, PowerPoint proqramında hazırlanmış təqdimat resurslarından) interaktiv resurs şagirdin lövhədə müstəqil və sərbəst çalışması üçün düşünülüb hazırlanmalıdır. Bu amil interaktiv resursun və interaktiv dərsin təməl prinsipidir.

İnteraktiv tapşırıqlar hazırlayarkən müasir təlim üsullarından -BİBÖ, akvarium, qərarlar ağacı, rollar üzrə oyun, klaster, fərqli cədvəl və diaqram formalardan, "zaman xətti" və s. geniş istifadə olunması məqsədəuyğundur.

Dərsdə alınmış kompetensiyanın (səriştə) möhkəmləndirilməsi üçün ən geniş yayılmış sərbəst iş formalarına - yaradıcı və əl işləri, layihələr, təqdimatlar, ev tapşırıqları və s. daxil edilə bilər. Düşünürəm ki, dərslərin ev tapşırıqları hissəsində şagirdlərə İKT-nin imkanlarından istifadə etməklə daha maraqlı, səmərəli və effektiv formada təqdimatlar hazırlatmaqla, qoyulan tapşırıqları həll etmək olar. Ev tapşırıqlarının daha çox tədqiqat və yaradıcılıq elementləri ilə zəngin olmasına diqqət yetirilməlidir.

Hər bir fənn üzrə, eləcədə tarix fənninin tədrisində inteqrasiyanın rolu böyük və əhəmiyyətlidir. Belə ki qoyulan problemin həllinə müxtəlif yanaşmaların tətbiqi, digər fənlərin əlaqələndirilməsi nəticəsində həlli yollarının tapılması, əməkdaşlıq bacarıqlarının inkişaf etdirilməsi və s. baxımından inteqrasiyanın tədrisdə rolu danılmazdı. Lakin təəssüf ki, fəndaxili və fənlərarası inteqrasiya da formal qeyd olunmalarına rəğmən çox vaxt dərsdə istifadə edilmir. Halbuki, bu mərhələdə də müəllim yaradıcılıq imkanlarını tətbiq edərkən maraqlı nümunələr nümayiş etdirə bilər.

Bu gün şagirdlərdən məntiq, yaradıcı fəaliyyət, sərbəst düşüncə, mühakimə yürütmək, müşahidə aparmaq, başqalarının fikrinə qarşı öz rəyini bildirmək, fikrini və ya mövqeyini aydın ifadə etmək və onu müdafiə etmək, qərar qəbul etmək kimi bacarıqlar tələb olunur. Bu da cəmiyyətin həyatında fəal iştirak edə bilən kamil vətəndaş yetişdirmək deməkdir. "Şagirdə hazır biliklər vermək" anlayışı qaldı keçmişdə, XXI əsrdə daha çox şagirdlərdə yüksək səviyyəli düşünmə qabiliyyətlərinin, təfəkkür tərzinin informasiya əsrinin tələblərinə uyğun inkişaf etdirilməsinə yönəltmək daha üstündür. Yeni texnologiyalar da bu məqsədlərə çatmaq üçün effektiv vasitə kimi mükəmməl istifadə olunmalıdır. Vətəndaş yetişdirmək üçün bu günün müəllimi müasir tələblərə cavab verməlidir və bu istiqamətdə çalışmağı rəhbər tutmalıdır.

**Dadaşov Müşfiq**
**M.İbrahimov adına Biləsuvar lisey-məktəb kompleksinin tarix kafedrasının koordinatoru, tarix müəllimi**

***Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında hazırlanıb.***